

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

13 iyun 2025-ci il, cümə
№ 0100 (6927)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Növbəti sosial islahat paketi



Bax səh. 2

## Qadınların hüquqlarının təmin olunması istiqamətində ardıcıl siyasət

Bax səh. 2

## “Türk Əsri: parlament diplomatiyasının rolu”

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Sovetlər ittifaqı dağıldıqdan sonra türk dövlətləri ilə münasibətlər qurmaq və inkişaf etdirmək Azərbaycanın xarici siyasətində prioritet olub. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. Türk Dövlətləri Təşkilatının yaranması, siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Bu gün Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə, iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Azərbaycan türk dünyasının mənəvi birliyinin siyasi təzahürünə nail olmaq, dünya qarşısına bütün cəhətlər üzrə daha üstün sivilizasiya ilə çıxmaq zərurətini diqqət mərkəzində saxlayır. Türk dövlətlərinin birliyi istiqamətində səylərin daha da intensivləşdirilməsi bu qənaəti bir daha gücləndirir. Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirir.

**Sahibə Qafarova iclasda hesabat verib**

Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində sıx əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biri də, Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Xatırladaq ki, Türk Dövlətləri Parlament Assambleyası 21 noyabr 2008-ci ildə İstanbul şəhərinin Dolmabaxça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişlə təsis olunub. 29 sentyabr 2009-cu ildə Azərbaycanın...

Bax səh. 4

## Leyla Əliyeva ÜST-nin yüksəksəviyyəli tədbirində videokonfrans formatında iştirak edib




Bax səh. 3

## Qurtuluş məfkurəsi uğurlarımızın təməlidir

Bax səh. 5

## Milli Qurtuluş Günü: Azərbaycan tarixinin qürur səhifəsi

Bax səh. 4

## Hikmət Hacıyev: Azərbaycan ilə İordaniya arasında bütün səviyyələrdə və sahələrdə dərin münasibətlər mövcuddur

Azərbaycan ilə İordaniya arasındakı münasibətlər bütün səviyyələrdə və sahələrdə güclü və dərindir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İordaniyanın PETRA xəbər agentliyinə müsahibəsində bildirib.

Hikmət Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevlə İordaniya Kralı II Abdullah arasında yaxın və davamlı qarşılıqlı əlaqələri ikitərəfli əməkdaşlığın əsas təməli kimi qiymətləndirib.

Prezidentin köməkçisi, həmçinin ötən il Krallığın Vəliəhd Şahzadəsi II Əl-Hüseyn bin Abdullahın Bakıya səfərini və COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əhəmiyyətini vurğulayıb. O, görüşdə aparılan müzakirələri ikitərəfli əməkdaşlığın irəli aparılması üçün məhsuldar və mühüm addım kimi dəyərləndirib.

H.Hacıyev qeyd edib ki, hər iki ölkə beynəlxalq platformalarda sıx koordinasiyanı davam etdirir və qarşılıqlı maraq doğuran məsələlərdə, o cümlədən Fələstin məsələsində...

Bax səh. 8

## ABŞ-dan xəbərdarlıq...



Bax səh. 7



# Qadınların hüquqlarının təmin olunması istiqamətində ardıcıl siyasət...

## Prezident İlham Əliyev Bakıda keçirilən konfransın iştirakçılarına məktub ünvanlayıb

Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda ikinci iclasının iştirakçılarına məktub ünvanlayıb. Dövlət başçısı "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda Bakı şəhərində keçirilən ikinci iclasının öz işinə başlaması münasibətilə tədbir iştirakçılarına ən xoş arzularımı bildirib: "Zəngin ortaq tarixi-mədəni köklərə malik türk xalqlarının həyatında ailə həmişə sosial nizamın bünövrəsini təşkil etmişdir. Bütün şanlı keçmişimiz boyunca qadınlar həm ailənin mənəvi dayağı olmuş, həm Vətənin müdafiəsini özlərinin müqəddəs vəzifəsi bilmiş, həm də yüksək ictimai mövqelər qazanaraq cəmiyyətin tərəqqisinə töhfə vermişlər. Müştərək əxlaqi sərvətlər xəzinəmizin yaşadılmasında onların müstəsna xidməti vardır. Hazırkı qlobal çağırışlar dövründə Türk Dövlətləri Təşkilatı miqyasında ailə məsələləri və sosial siyasət sahəsində əlaqələrin dərinləşdirilməsi ölkələrimizdə ailə institutunun qorunması və gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır, ənənəvi dəyərlərlə uzlaşan dayanıqlı inkişaf və inklüzivlik yolunda yeni imkanlar açır".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan dövləti qadınların hüquqlarının təmin olunması və onların cəmiyyətdə rolunun genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Ölkəmizdə qadınlar öz mədəni-elmi potensialları ilə ictimai-siyasi proseslərdə yaxından iştirak edir, dövlət qurumlarında layiqincə təmsil olunurlar: "Əminəm ki, iclas zamanı ən aktual məsələlər ətrafında aparacağınız dolğun və səmərəli fikir mübadiləsi birgə hədəflərin müəyyənləşməsi və mühüm platformaların hazırlanması üçün əlverişli zəmin yaradacaqdır".

# Prezident başsağlığı verdi...

Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerə başsağlığı məktubu ünvanlayıb. Məktubda deyilir: "Hindistanın Əhmədabad şəhəri yaxınlığında "Air India" şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində Böyük Britaniya vətəndaşları da daxil olmaqla, çoxsaylı insan tələfatı barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm".

# Prezident İlham Əliyev zavodun açılışında...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Əhməd Gözəl müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat veriblər.

"Azərsun Holdinq"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - popkorn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur. İllik istehsal həcmi 9600 ton olan zavodda dünyanın aparıcı ölkələrinin müasir avadanlıqları quraşdırılıb. İstehsalatda istifadə ediləcək günəbaxan, badam, fındıq kimi məhsullar yerli xammal hesabına təmin olunacaq. Ümumi sahəsi 7 hektardan çox olan müəssisədə 210 nəfər daimi işlə təmin ediləcək. Zavodun ümumi investisiya dəyəri 38 milyon manat təşkil edir ki, bunun da 5 milyon manatı Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Qeyd edək ki, Azərbaycanda istehsal, o cümlədən emal müəssisələrinin qurulması, onların fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi, rəqabətədavamlı məhsulun istehsalı və çeşidinin genişləndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Yerli xammal əsasında istehsalın genişləndirilməsi isə daxili bazarın sabit saxlanılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına da xidmət edir, ixrac potensialını daha da artırır. Bütün bunlar "Made in Azerbaijan" brendi ilə məhsulların xarici bazarlara çıxarılması məsələsində olduqca mühüm əhəmiyyət kəsb edir. Bu yeni zavodun yaradılması ölkəmizdə sahibkarlığın təşviqi, ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunun göstəricisidir.



# Sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək...

Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə bu ölkənin Dövlət bayramı - Rusiya Günü münasibətilə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Azərbaycan və Rusiya xalqlarını əsrlər boyu ənənəvi sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək münasibətləri birləşdirir. Bu gün həmin nəcib ənənələr dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafı və məsələlərin geniş spektri üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün etibarlı bünövrədir. Əminəm ki, dost xalqlarımızın və ölkələrimizin maraqları naminə biz bundan sonra da Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsi, strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda çoxplanlı qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün bütün səyləri göstərəcəyik".

Dövlət başçısı məktubda əlamətdar günlə bağlı Rusiyanın bütün vətəndaşlarına əmin-amanlıq və tərəqqi arzuladığını bildirib.

# Növbəti sosial islahat paketi



## Prezident İlham Əliyev müavinət və təqaüdlərin artırılması ilə bağlı Fərman imzalayıb

Prezident İlham Əliyev müavinət və təqaüdlərin artırılması ilə bağlı Fərman imzalayıb. Yeni Fərman bu ilin əvvəlindən reallaşdırılan növbəti, 2018-ci ildən ötən dövrdə isə 5-ci sosial islahat paketi çərçivəsində şəhid ailələri, əlilliyi olan şəxslər, beşdən çox uşağı olan qadınlar, aztəminatlı ailələr və digər kateqoriyalara yönələn müavinət və təqaüdlərin də artırılmasını təmin edir.

Fərmana əsasən, 2025-ci ilin 1 iyulundan şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 700 manata çatdırılır.

Müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 600 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 500 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 400 manata çatdırılır.

Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2 min 200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2000 manata çatdırılır, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü 1700 manata çatdırılır.

Yeni Fərmana əsasən uşağın anadan olmasına görə birdəfəlik müavinət 600 manata, dəfn üçün birdəfəlik müavinət 600 manata, himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət 0-6 yaş arası uşaq üçün 500 manata, 7-13 yaş arası uşaq üçün 600 manata, 14-18 yaş arası uşaq üçün 650 manata çatdırılır.

Əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 300 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 250 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 180 manata çatdırılır.

Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü 350 manata, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdü 250 manata, övladlığa götürülən hər uşağa görə aylıq müavinət 240 manata çatdırılır.

Bundan başqa ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı yardım alan) hər uşağa görə aylıq müavinət 140 manata, beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət 140 manata çatdırılır.

Müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) 140 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət 140 manata, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü 120 manata çatdırılır.

Fəxri adlara layiq görülmüş şəxslərə aylıq təqaüd "Xalq" fəxri adına görə 300 manata, "Əməkdar" fəxri adına görə 200 manata çatdırılır.

Qeyd edək ki, Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə icra olunan yeni sosial islahat paketi çərçivəsində bu ilin əvvəlindən ölkəmizdə minimum aylıq əməkhaqqı 400 manata, minimum pensiya fevralın 1-dən 320 manata çatdırılıb, həmçinin bütün növ pensiyalar ilin əvvəlindən 8,1 faiz indeksləşdirilməklə artırılıb.

Ümumilikdə, qeyd edilən növbəti sosial islahat paketi 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.












# “Türk Əsri: parlament diplomatiyasının rolu”

## Astanada TÜRKPA-nın bu mövzuda 14-cü plenar iclası keçirilib

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Sovetlər ittifaqı dağıldıqdan sonra türk dövlətləri ilə münasibətlər qurmaq və inkişaf etdirmək Azərbaycanın xarici siyasətində prioritet olub. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. Türk Dövlətləri Təşkilatının yaranması, siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Bu gün Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə, iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Azərbaycan türk dünyasının mənəvi birliyinin siyasi təzahürünə nail olmaq, dünya qarşısına bütün cəhətlər üzrə daha üstün sivilizasiya ilə çıxmaq zərurətini diqqət mərkəzində saxlayır. Türk dövlətlərinin birliyi istiqamətində



səylərin daha da intensivləşdirilməsi bu qənaəti bir daha gücləndirir. Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirir.

**Sahibə Qafarova iclasda hesabat verib**

Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində sıx əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biri də, Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Xatırladaq ki, Türk Dövlətləri Parlament Assambleyası 21 noyabr 2008-ci ildə İstanbul şəhərinin Dolmabaxça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişlə təsis olunub. 29 sentyabr 2009-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində TÜRKPA-nın I plenar sessiyası keçirilib. Plenar sessiyada TÜRKPA-nın Reqlamenti, Katibliyin Əsasnaməsi və Bakı Bəyannaməsi, Katibliyin daimi əsasla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilib. TÜRKPA sədrliyi rotasiya üsulu ilə ildə bir dəfə bir ölkədən digərinə keçməkdədir. TÜRKPA Katibliyi Azərbaycanın paytaxtı Bakı şəhərində yerləşən və beynəlxalq təşkilat statusuna malik olan qurumdur.

Yarandığı vaxtdan təşkilatın üzv ölkələrdə davamlı olaraq tədbirləri keçirilir və müvafiq qərarlar qəbul olunur. Yeri gəlmişkən, iyunun 12-də Qazaxıstanın paytaxtı Astana şəhərində TÜRKPA Assambleya Şurasının iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda TÜRKPA-nın fəaliyyətdə olan sədri, Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova çıxış edərək, bu toplantıda aparılan fikir mübadiləsinin, qəbul olunan qərarların təşkilatın məqsədlərinin həyata keçirilməsinə töhfə verəcəyinə inamını bildirib.

O, Milli Məclisin təşkilata sədrliyi dövründə görülən işlər haqqında hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırıb. S.Qafarova vurğulayıb ki, ötən dövrdə parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi, TÜRKPA-nın fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində bütün addımlar atılıb. TÜRKPA-nın başqa beynəlxalq platformalara bənzəmədiyini, eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən qardaş xalqlarımızın təmsilçilərini eyni çətir altında birləşdirən bir təşkilat olduğunu deyən Milli Məclisin sədri bildirib ki, qardaş ölkələrimiz arasındakı əməkdaşlığın gündən-günə inkişaf etdiyi bir dövrdə TÜRKPA-nın səmərəli fəaliyyəti ölkələrimiz arasında birliyin və həmrəyliyin genişlənməsinə parlament dəstəyini təmin edir. Təşkilat, həm də türk dünyasının vahid mövqeyinin beynəlxalq parlament platformalarında eşidilməsinə imkan yaradır.

**TÜRKPA-ya sədrlik Azərbaycandan Qazaxıstana keçib**

S.Qafarova deyib ki, Milli Məclisin quruma sədrliyi 13-cü Şura iclası zamanı qəbul edilən Fəaliyyət Planı əsasında həyata keçirilib. Ötən dövrdə daimi komissiyaların iclasları Fəaliyyət Planına uyğun olaraq müntəzəm şəkildə keçirilib, üzv ölkələrin qanunvericiliyinin yaxınlaşdırılması




istiqamətində fəaliyyət davam etdirilib. Vahid hüquqi məkanın formalaşması prosesinin önəmli aspekti olan model qanunların hazırlanması istiqamətində fəaliyyət böyük səylə davam etdirilib. O cümlədən, seçki və referendumların müşahidəsi işi uğurla həyata keçirilib ki, bu da üzv ölkələrin dövlət strukturları ilə Assambleya arasında əməkdaşlığın güclənməsinə, üzv ölkələrdə demokratik seçki ənənələrinin daha da inkişafına töhfə verir.

Hesabatda, həmçinin ölkələrimizdə qadınların və gənclərin rolunun artırılması, üzv parlamentlərimizin qadın və gənc təmsilçiləri arasında əməkdaşlığın daha da gücləndirilməsi baxımından TÜRKPA-nın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun işi əhəmiyyətli qiymətləndirilib və bu sahədə keçirilən tədbirlər təqdir edilib. TÜRKPA çərçivəsində ayrı-ayrı parlament komitələrinin çoxtərəfli əməkdaşlığı və dialoqu da ümumi işimizə mühüm töhfə kimi qiymətləndirilib.

Sonra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib, həmçinin təşkilata sədrlik Qazaxıstana keçib.

**TÜRKPA-nın yeni Baş katibi seçilib**

Qeyd edək ki, həmin gün Astana şəhərində TÜRKPA-nın “Türk Əsri: parlament diplomatiyasının rolu” mövzusunda 14-cü plenar iclası da keçirilib. Tədbirdə üzv və müşahidəçi dövlətlərin parlament nümayəndə heyətlərinin, o cümlədən beynəlxalq təşkilatların, türk əməkdaşlıq təşkilatlarının və digər tərəfdaş qurumların nümayəndələri iştirak ediblər. İclasda Milli Məclisin sədri Sahibə Qafarova çıxış edib. O deyib ki, türk xalqlarının yeni yüksəlişinin yolu birlik və həmrəylikdən keçir. “Azərbaycan parlamenti TÜRKPA çərçivəsində qarşılıqlı fəaliyyətə bundan sonra da ümdə əhəmiyyət verəcək”, - deyə spiker vurğulayıb.

İclas çərçivəsində əsas diqqət parlamentlərarası əməkdaşlıq məsələlərinə və türk dövlətləri arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsinə yönələcək. Məqsəd birgə işin səmərəliliyini artırmaq və regionda strateji tərəfdaşlığın inkişafına töhfə verməkdir.

İclasda təşkilati məsələlərə də baxılıb və Azərbaycan parlamentinin spikeri S.Qafarova TÜRKPA-nın Baş katibi vəzifəsinə Ramil Həsənin namizədliyini irəli sürüb. Səsvermə nəticəsində R.Həsən bu vəzifəyə seçilib. Toplantıda müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

**Astana Bəyannaməsində Qərbi azərbaycanlıların qayıdış hüququ dəstəklənib**

TÜRKPA-nın 14-cü plenar iclasın nəticəsi olaraq Astana Bəyannaməsi qəbul olunub. Sənəddə indiki Ermənistan ərazisindən zorla və sistemli şəkildə qovulmuş azərbaycanlıların taleyi ilə bağlı dərin narahatlıq ifadə olunur, onların doğma yurdlarına dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaq hüququ da dəstəklənir.

Qeyd edək ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev də TÜRKPA-ya üzv dövlətlərin parlament sədrləri ilə görüşüb. O, ölkəsinin Türk Dövlətləri Təşkilatının təsisçilərindən biri olduğuna diqqət çəkib. Qazaxıstan Prezidenti qeyd edib ki, Astanada TÜRKPA toplantısının “Türk Əsri: parlament diplomatiyasının rolu” mövzusunda keçirilməsi təşəbbüsünü tam dəstəkləyir. Onun sözlərinə görə, müasir çağırışlar kontekstində qarşılıqlı fəaliyyətin gücləndirilməsi xüsusilə vacibdir: “Qazaxıstan qardaş ölkələr arasında parlamentlərarası əlaqələrə, xalq diplomatiyasına xüsusi əhəmiyyət verir. Qeyd etmək olar ki, Türk Dövlətləri Parlament Assambleyası mötəbər beynəlxalq təşkilatdır və əməkdaşlığımızı dərinləşdirməyə imkan verən unikal strukturdur. Təşkilat çərçivəsində birgə fəaliyyətiniz böyük əhəmiyyətə malikdir”. Kasım-Jomart Tokayevin fikrincə, bu görüş ümumi məqsədləri, türk dünyası ölkələrinin birliyinin qorunub saxlanmasının və möhkəmləndirilməsinin vacibliyini bir daha əyani şəkildə nümayiş etdirir.

***Nardar BAYRAMLI***

# Hikmət Hacıyev: Azərbaycan ilə İordaniya arasında bütün səviyyələrdə və sahələrdə dərin münasibətlər mövcuddur

Azərbaycan ilə İordaniya arasındakı münasibətlər bütün səviyyələrdə və sahələrdə güclü və dərindir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İordaniyanın PETRA xəbər agentliyinə müsahibəsində bildirib.



Hikmət Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevlə İordaniya Kralı II Abdullah arasında yaxın və davamlı qarşılıqlı əlaqələri ikitərəfli əməkdaşlığın əsas təməli kimi qiymətləndirib.

Prezidentin köməkçisi, həmçinin ötən il Krallığın Vəliəhd Şahzadəsi II Əl-Hüseyn bin Abdullahın Bakıya səfərini və COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əhəmiyyətini vurğulayıb. O, görüşdə aparılan müzakirələri ikitərəfli əməkdaşlığın irəli aparılması üçün məhsuldar və mühüm addım kimi dəyərləndirib.

H.Hacıyev qeyd edib ki, hər iki ölkə beynəlxalq platformalarda sıx koordinasiyanı davam etdirir və qarşılıqlı maraq doğuran məsələlərdə, o cümlədən Fələstin məsələsində ortaq mövqe sərgiləyir.

# Leyla Əliyeva ÜST-nin yüksəksəviyyəli tədbirində videokonfrans formatında iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İslandiyanın paytaxtı Reykyavikdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin təşəbbüsü ilə keçirilən İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının açılış iclasında və ilk hibrid dinləməsində videobağlantı vasitəsilə iştirak və çıxış edib.







AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva çıxışı zamanı COP29-un ev sahibi Azərbaycanın bu sahədə atdığı addımlar, qazandığı təcrübə və həyata keçirdiyi təşəbbüslər barədə məlumat verib. Bildirib ki, iqlim dəyişikliyi təkcə ekoloji deyil, eyni zamanda, ictimai sağlamlıq baxımından da ciddi qlobal çağırışlardan biridir. O, ölkəmizdə su ehtiyatlarının idarə olunması, ətraf mühitin mühafizəsi və iqlimə davamlılıq üzrə reallaşdırılan layihələrdən bəhs edib.



Leyla Əliyeva, həmçinin IDEA İctimai Birliyi tərəfindən irəli sürülən müxtəlif təşəbbüslərlə gənclərin iqlim və sağlamlıq mövzularında fəallığının artırılmasının vacibliyini qeyd edib və beynəlxalq təşkilatları bu istiqamətdə geniş əməkdaşlığa çağırıb.

Sonra tədbirdə çıxış edən ÜST-nin Avropa üzrə regional direktoru Hans Kluge Azərbaycanın COP29 çərçivəsində göstərdiyi liderliyi və təşəbbüskarlığı yüksək qiymətləndirdiklərini bildirib. O vurğulayıb ki, Azərbaycan yalnız regionda deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə fəal mövqe tutur və nümunəvi yanaşmalar nümayiş etdirir. Hans Kluge, həmçinin iqlim dəyişikliyi və ictimai sağlamlıq sahələrində həyata keçirilən layihələrə verdiyi töhfələrə görə Leyla Əliyevaya təşəkkürünü ifadə edib.

Qeyd edək ki, ÜST-nin Avropa üzrə Regional Ofisi tərəfindən yaradılan İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının məqsədi iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərini diqqət mərkəzinə gətirmək, sahələrarası əməkdaşlığı gücləndirmək və bu istiqamətdə konkret fəaliyyət mexanizmləri formalaşdırmaqdır. Reykyavikdə keçirilən rəsmi açılış iclası ilə Komissiya öz fəaliyyətinə rəsmən start verib.



# Milli Qurtuluş Günü: Azərbaycan tarixinin qürur səhifəsi

Hamımız-bütün Azərbaycan xalqı qürur hissi ilə xatırlayır ki, 1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə dönüşü və iyunun 15-də Respublikanın Ali Sovetinin Sədri vəzifəsinə seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Müstəqilliyin ilk illərində ölkəmizin üzləşdiyi ciddi iqtisadi problemlər respublikada hakimiyyəti ələ keçirmiş səriştəsiz və məsuliyyətsiz qrupların dağıdıcı fəaliyyətləri ilə uzlaşaraq ölkəni cəmi iki il ərzində siyasi böhrana gətirib çıxarmışdı. Vətəndaş müharibəsi, ölkənin bir neçə cırtdan marionet "dövlət"ə parçalanması və Azərbaycanın vahid suveren ölkə olaraq dünyanın siyasi xəritəsindən silinməsi bizi gözləyən ən təhlükəli perspektiv idi. Belə bir ağır məqamda xalqımız öz taleyini yalnız Heydər Əliyevə etibar edə bilərdi və etdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtara bildi, Azərbaycanda uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu.

Ümummilli Lider Heydər Əliyevin istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə xalqın rifah halının yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülmüşdür. 1969-cu ilin iyulunda, Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən əsas strateji amil oldu. Məhz həmin tarixdən - Ulu Öndərin ilk dəfə siyasi hakimiyyətə gəldiyi gündən Azərbaycanın həqiqi inkişafı başladı. Bu işlərə paralel olaraq, respublikamızda milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. 1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq məhz Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Siyasi-ideoloji müstəvidə görülən işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar idi.

Ulu Öndər müstəqilliyimizin ilk mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Bu sahədə yürüdülən uzaqgörən siyasət nəticəsində respublika informasiya blokadasından çıxarıldı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Heydər Əliyev və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi.

Ölkəmizdə həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyev xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində Azərbaycan hərtərəfli və sürətli inkişaf mərhələsini yaşamaqdadır. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətini artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib. Çoxşaxəli, tarazlaşdırılmış, milli maraqlara əsaslanan xarici siyasət kursuna malik olan Azərbaycan artıq uzun müddətdir ki, Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində dünyada və Avropada etibarlı tərəfdaş və nüfuzlu söz sahibi kimi tanınır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara müvafiq surətdə reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Ən mühüm məqam isə budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə davam etdirən Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin yazdığı Qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi, ərazi bütövlüyümüz bərpa olundu.

Xalqımız artıq 5-ci ildir ki, bu günü qalib xalq kimi daha yüksək əhvali-ruhiyyə, milli qürur hissi, Qələbə əvqatı ilə qeyd edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qurucusu Ümummilli Lider Heydər Əliyevin olan şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Qırx dörd günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər və digər uğurlar Milli Qurtuluş Günündən qaynaqlanır.

Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla və özünə xas uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik".

Ulu Öndər Heydər Əliyevin arzuları 30 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini uğurla yerinə yetirdi. Bu gün Xankəndidə, Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır!



***Kamələddin QAFAROV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı***

# Müstəqillik və qalibiyyət: Heydər Əliyev ideyalarının təntənəsi...

Müasir Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyev millətimizin taleyüklü anlarında xilaskarlıq missiyasını öz üzərinə götürmüşdür. Xalqın arzu və istəklərini dərindən anlayan, ictimai-siyasi prosesləri düzgün dəyərləndirən Ulu Öndərin zəngin siyasi təcrübəsi, dərin zəkası və dövlətçilik təfəkkürü ölkəmizi ağır sınaqlardan çıxararaq müstəqil və güclü bir dövlətə çevirmişdir.

1990-cı illərin əvvəlləri müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan üçün olduqca mürəkkəb, təhlükəli və ziddiyyətli bir dövr kimi yadda qalmışdır. O zamankı ölkə rəhbərliyinin həm idarəetmə təcrübəsinin olmaması, həm də şəxsi ambisiyaların ön plana çıxması nəticəsində respublikamız ciddi siyasi böhranla üzləşmişdir. Vətəndaş qarşıdurması, silahlı qiyamlar və separatizm meyilləri geniş miqyas almış, ictimai-siyasi sabitlik pozulmuş, dövlət institutları iflic vəziyyətinə düşmüşdür. Bütün bunlar ölkəmizin dövlət müstəqilliyini itirmək təhlükəsini meydana çıxarmışdır. Məhz bu kritik məqamda xalqın və dövlətin qurtuluş ümidi yalnız bir dahi şəxsiyyətə - Ümummilli Lider Heydər Əliyevə yönəlmişdir.

1993-cü ilin iyununda ölkədə dərinləşən siyasi böhran fonunda xalqın təkidli tələbi ilə Naxçıvanda Ali Məclisin Sədri kimi fəaliyyət göstərən Heydər Əliyev Bakıya dəvət olundu. 15 iyun 1993-cü il tarixində Ulu Öndərin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi xalqın taleyində dönüş nöqtəsi olmaqla bərabər, dövlətçiliyimizin xilasını təmin edən faktor kimi xüsusi önəm kəsb edir.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə ilk növbədə dövlət institutlarının fəaliyyəti təmin olundu, qanunun aliliyinə əsaslanan idarəetmə sistemi formalaşdırıldı.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın müasir inkişaf tarixində mühüm rol oynamaqla yanaşı, ölkənin müstəqil enerji siyasətinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində imzalanan bu müqavilə ölkəmizin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün etibarlı zəmin yaratdı. "Əsrin müqaviləsi" ilə Azərbaycan dünyanın aparıcı enerji şirkətləri ilə uzunmüddətli əməkdaşlığa başladı, bu isə ölkənin strateji tərəfdaşlar qazanmasına səbəb oldu. Neft və qaz layihələri vasitəsilə xarici investisiyalar ölkə iqtisadiyyatına axmağa başladı. Həmçinin bu müqavilə Azərbaycanın Cənubi Qafqazda enerji təhlükəsizliyinin əsas aktoruna və transmilli layihələrin önəmli iştirakçısına çevrilməsində mühüm rol oynadı. Ən əsası isə bu enerji strategiyası Azərbaycanın siyasi müstəqilliyinin iqtisadi təminatına çevrildi. "Əsrin müqaviləsi" ilə qoyulan bu möhkəm təməl illər sonra ölkəmizin enerji sahəsində qazandığı uğurların, o cümlədən Cənub Qaz Dəhlizi kimi nəhəng layihələrin reallaşmasının əsasını təşkil etdi.

Bunlarla yanaşı, Ulu Öndərin rəhbərliyi ilə atılan addımlar nəticəsində ordu quruculuğu sahəsində önəmli nailiyyətlər qazanıldı. İlk növbədə hüquqi-normativ baza yaradıldı, zabit və əsgər heyətinin sosial təminatı yaxşılaşdırıldı, hərbi təhsil müəssisələri yenidən təşkil olundu. Orduda vahid komandanlığın təmini və döyüş hazırlığının artırılması sahəsində sistemli tədbirlər görüldü. Bu proses təkcə hərbi strukturun gücləndirilməsi deyil, həm də milli ruhun, vətənpərvərlik şüurunun yüksəldilməsi demək idi.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə ilk milli Konstitusiyanın qəbulu müstəqil Azərbaycanda hüquqi dövlət quruculuğuna fundamental əsaslar yaratdı. Qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin səlahiyyətləri müəyyənləşdirildi. İnsan hüquqları, söz və vicdan azadlığı, demokratik institutların möhkəmləndirilməsi kimi prinsiplər bu sənəddə öz əksini tapdı. Hüquqi dövlət quruculuğu sahəsində qəbul olunan normativ aktlar ölkədə vətəndaş cəmiyyətinin formalaşmasına və beynəlxalq standartlar uyğun mexanizmlərin yaradılmasına zəmin yaratdı.

Ulu Öndər Heydər Əliyev təhsilə hər bir cəmiyyətin inkişafının əsası, milli-mənəvi dəyərlərin və elmi potensialın daşıyıcısı kimi xüsusi önəm verirdi. Onun rəhbərliyi dövründə təhsil sisteminin müasir tələblərə uyğun qurulması, elmin və təhsilin cəmiyyət həyatında aparıcı rol oynaması əsas strateji hədəflərdən biri oldu. Heydər Əliyev ali və orta ixtisas təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, tədris prosesinin müasir tələblərə uyğunlaşdırılmasına xüsusi diqqət yetirirdi. Beləliklə, Ümummilli Liderin imzaladığı fərman və sərəncamlarla ali təhsil sisteminin təkmilləşdirilməsi və təhsil islahatlarının davamlılığı təmin olundu. Bu siyasət sonrakı illərdə Azərbaycanın intellektual potensialının möhkəmlənməsinə güclü təkan verdi.

Heydər Əliyev səhiyyə sisteminin inkişafını dövlət siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyənləşdirmişdi. Onun təşəbbüsü ilə səhiyyə müəssisələrinin yenidən qurulması, əsaslı təmiri və yeni avadanlıqlarla təchiz olunması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Həmçinin əhalinin tibbi maarifləndirilməsi sahəsində ardıcıl proqramlar tətbiq olundu. Bu siyasət səhiyyə xidmətlərinin əhatə dairəsinin genişlənməsinə və tibbi infrastrukturun yenilənməsinə şərait yaratdı.

Ümummilli Lider Heydər Əliyev gəncləri dövlətin gələcəyi və aparıcı qüvvəsi kimi dəyərləndirir, onların milli ruhda formalaşmasına xüsusi önəm verirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, Azərbaycan Gəncləri Gününün təsis olunması bu sahədə aparılan siyasətin ardıcıl və sistemli xarakter daşıdığını göstərir. Gənclərin ictimai-siyasi proseslərdə fəal iştirakı, onların dövlət qulluğuna, elmi-tədqiqatlara və beynəlxalq təcrübəyə çıxış imkanları genişləndirildi. Gənclərin mənəvi, intellektual və sosial inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bu təbəqə cəmiyyətin dinamik sosial qüvvəsinə çevrildi.

Dahi Lider Heydər Əliyev idmanı cəmiyyətin sağlam həyat tərzinin vacib tərkib hissəsi, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsində mühüm vasitə kimi dəyərləndirirdi. Onun rəhbərliyi ilə milli idman federasiyaları yaradıldı və dövlət proqramları qəbul olundu. Ulu Öndərin təşəbbüsü ilə Bakı şəhərində və regionlarda olimpiya idman komplekslərinin tikintisinə başlanıldı, idman infrastrukturunun yenilənməsi istiqamətində genişmiqyaslı layihələr həyata keçirildi. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurla çıxış etməsi və Olimpiya Hərəkatında fəal iştirak etməsi üçün dövlət dəstəyi gücləndirildi. Bu siyasət nəticəsində ölkədə idmanın kütləviliyi təmin olundu.

Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasət strategiyasını balanslaşdırılmış, praqmatik və milli maraqlara əsaslanan amillər üzərində qurdu. Qarşılıqlı hörmət və bərabərlik prinsipləri rəhbər tutuldu, beynəlxalq təşkilatlarla aktiv əməkdaşlıq təmin edildi. Ölkəmiz Qərb və Şərq arasında etibarlı tranzit və enerji tərəfdaşına çevrildi. Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində nüfuz qazandı və dövlət müstəqilliyini gücləndirməyi bacardı.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs Prezident İlham Əliyev tərəfindən strateji ardıcıllıqla davam etdirilir. Məhz bunun nəticəsində tərəqqi yolunda inamla addımlayan Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfərə nail oldu. 2023-cü ildə keçirilmiş lokal antiterror tədbirləri ilə dövlətimizin suverenliyi tam təmin olundu, ölkənin bütün ərazilərində konstitusion hüquq bərqərar edildi.

Milli Qurtuluş Günü həm də xalqın milli yaddaşına yazılmış qürur səhifəsidir. Azərbaycanın bugünkü siyasi sabitliyi, iqtisadi gücü, hərbi qüdrəti, beynəlxalq nüfuzu və xalqın milli birliyi məhz 1993-cü ildə başlanan xilaskarlıq missiyasının nəticəsidir. Bu tarixi gün müstəqillik ideyasına sədaqətin, liderə inamın və dövlətçilik iradəsinin simvoludur. Dövlət müstəqilliyini qorumaq və onu gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs vəzifəsidir.



***Şəhla Abdullayeva,***
***YAP Ucar rayon təşkilatının sədri***

# Qurtuluş məfkurəsi uğurlarımızın təməlidir



Azərbaycan xalqı XX əsrin əvvəlində və sonunda həlledici, taleyüklü situasiya və qərarlarla üz-üzə qalmalı oldu. Qazanılan müstəqillik ötən əsrin əvvəlində qısa müddətdən sonra itirildi. XX əsrin 90-cı illərində qazanılan müstəqillik də qanlı-qadalı oldu, çətin və mürəkkəb sınaqla üzləşdi - amma 1993-cü ildən sonra tarixi-siyasi missiya və məsuliyyətini şərəflə irəliyə daşıdı. Bu reallığı təmin və mümkün edən amil isə lider amili, liderlik fenomeni oldu.

1990-cı illərin əvvəlində respublikamız ciddi siyasi böhran, iqtisadi tənəzzül ilə üzləşmişdi, yarıtmaz siyasət ölkənin regionda geosiyasi təcrid vəziyyətinə düşməsinə, beynəlxalq proseslərdən kənarda qalmasına səbəb olmuşdu. 1992-ci ildə hakimiyyəti ələ keçirmiş AXC-Müsavat cütlüyünün səriştəsiz və milli maraqlara zidd siyasəti nəticəsində xarici qüvvələrin qarşıdurma meydanına çevrilən Azərbaycanda xaos hökm sürürdü. Adı müstəqil dövlətlər sırasında olsa da, ölkənin nisbi suverenliyindən belə danışmaq olmazdı, çünki hakimiyyətdə olan qüvvələrin funksiya və səlahiyyətlərini yerinə yetirə bilməmələri hakimiyyət böhranı yaratmış, anarxiyanın meydana çıxmasına səbəb olmuşdu. Paralel olaraq ölkədə separatizm meyilləri baş qaldırmağa başlamışdı. 1993-cü ilin 4 iyun hadisələri isə Azərbaycanı vətəndaş müharibəsinə yaxınlaşdırdı. Bu, Azərbaycanı parçalamaq, ölkənin təbii sərvətlərini mənimsəmək, xalqı və dövləti öz itaəti altına salmaq istəyən xarici qüvvələrin planlarına uyğun gəlirdi.

Xalqımız böhran vəziyyətindən, müstəqilliyi itirmək təhlükəsindən xilas olmaq üçün vətənpərvər, qətiyyətli, dövlətçilik təcrübəsinə malik olan, dövlətin maraqlarını hər şeydən üstün tutan liderə ümid bəsləyirdi. Bu lider - şəxsiyyət, inam, etibar və etimad ünvanı məhz Heydər Əliyev idi. Hətta o zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi əsasında bir daha tarixi-siyasi məsuliyyəti öz üzərinə götürdü, Azərbaycan dövlətinin və dövlətçiliyinin xilası, ölkəni tənəzzüldən qurtararaq tərəqqi yoluna çıxarmaq missiyasını yerinə yetirməyə başladı. Həmin ilin iyunun 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi xalq tərəfindən sevinclə qarşılandı, Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı - dövlətçilik tariximizin mühüm dönüş nöqtəsi oldu. Bu qayıdış xalqımızı fəlakətdən, müasir Azərbaycanı isə Xalq Cümhuruyyətinin taleyini yaşamaq - müstəqilliyi itirmək təhlükəsindən xilas etdi.

Ümummilli Liderin qayıdışından sonra atılan addımlar Azərbaycan dövlətinin dirçəlişini təmin edir, gələcəyə optimist baxmağa imkan və əsas verirdi. 1993-cü il oktyabr ayının 3-də isə keçirilən prezident seçkiləri nəticəsində Heydər Əliyev xalqın böyük etimadı və dəstəyi ilə Azərbaycan Prezidenti seçildi. 10 oktyabr 1993-cü il tarixində keçirilmiş andiçmə mərasimində Ulu Öndər Heydər Əliyev "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm. Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm", - deyə qeyd etmişdi. Ulu Öndər qısa zamanda milli maraqlara, milli-mənəvi dəyərlərə, zamanın tələblərinə, reallıqlarına və çağırışlarına əsaslanan fəaliyyəti, uğurlu daxili və xarici siyasət kursu ilə Ona bəslənilən ümidləri doğrultdu.

Ulu Öndərimiz Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri Azərbaycanın tərəqqisi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli siyasi varis, qətiyyətli lider yetişdirməsidir. Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu, səmərəli daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını şərtləndirib. Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və Qarabağın erməni separatçılarından təmizlənməsi də bu uğurların məntiqi nəticəsidir. Prezident, Müzəffər Ali Baş Komandan azad edilmiş torpaqlarda təmələr atır, bayram tonqalı alovlandırır, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bundan sonra da möhtəşəm nailiyyətlər əldə edəcək, işğaldan azad olnmuş ərazilərimiz ən yüksək əsviyyədə bərpa olunacaq və bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar. Bütün bu qürurlu hadisələrin təməlində isə QURTULUŞ məfkurəsi dayanır!



**Murad PAŞAYEV**

# Milli dövlətçiliyimizin xilas günü

Ulu Öndər Heydər Əliyev müasir dövlətçiliyimizin memarı və xalqımızın xilaskar lideridir. Onun siyasi uzaqgörənliyi, qətiyyətli rəhbərliyi və tarixi xidmətləri sayəsində Azərbaycan çətin sınaqlardan keçərək müstəqil və güclü bir dövlətə çevrildi. Heydər Əliyevin əsasını qoyduğu strateji xətt bu gün də ölkənin sabitliyinin və tərəqqisinin əsas dayağıdır.

1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda siyasi böhran katostrafik həddə çatmışdı. Ölkənin bütün bölgələrində idarəetmə böhranı, sosial çətinliklər, işsizlik və ərzaq qıtlığı hökm sürürdü. Dövlət institutları iflic vəziyyətində idi, silahlı dəstələr müxtəlif bölgələrdə qeyri-qanuni fəaliyyət göstərirdi. Ermənistan tərəfindən torpaqlarımızın işğalı davam edir, beynəlxalq səviyyədə Azərbaycanın səsi eşidilmirdi. O dövrdə hakimiyyətə gəlmiş qüvvələrin məsuliyyətsiz və təcrübəsiz siyasəti nəticəsində respublikada anarxiya baş alıb gedirdi. Belə bir vaxtda xalq öz qurtuluş yolunu axtarır, onu işıqlı gələcəyə aparacaq liderə ehtiyac duyurdu.

1993-cü ilin iyun ayında Gəncədə baş vermiş silahlı üsyan və qeyri-sabitlik artıq ölkəni vətəndaş müharibəsinə doğru sürükləyirdi. Paytaxtda və bölgələrdə hakimiyyətə nəzarət getdikcə daha da zəifləyirdi. Həmin dövrdə xalqın, o cümlədən ziyalıların çağırışı ilə Naxçıvan Ali Məclisinin Sədri olan Ulu Öndər Heydər Əliyev Bakıya dəvət olundu və iyunun 15-də Ümummilli Lider Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu qərar xalq tərəfindən ümid və inamla qarşılandı, Həmin tarixdən başlayaraq ölkədə siyasi sabitliyin bərpası, dövlətçiliyin dirçəldilməsi və milli həmrəyliyin təmin edilməsi üçün ciddi addımlar atıldı. Bu səbəbdən 15 iyun Milli Qurtuluş Günü kimi tariximizə əbədi həkk olundu.

Həmin ilin oktyabrın 3-də keçirilən prezident seçkilərində xalqımız Heydər Əliyevə böyük etimad göstərərək Ulu Öndəri ölkə rəhbəri seçdi. Heydər Əliyev geniş siyasi təcrübəsini və dövlət idarəçiliyindəki müdrikliyini Azərbaycanda sabitlik və inkişafın bərpasına yönəltdi. Qısa müddətdə hüquqi və institusional islahatlar həyata keçirildi. Silahlı dəstələr tərksilah edildi, bölgələrdə idarəetmə gücləndirildi, yerli icra hakimiyyətləri yenidən formalaşdırıldı. Hakimiyyət orqanları arasında koordinasiya təmin edildi, ordu və hüquq-mühafizə orqanlarının fəaliyyətinə nəzarət bərpa olundu.

1994-cü il mayında imzalanmış atəşkəs sazişi uzun illər davam edən Dağlıq Qarabağ münaqişəsi çərçivəsində baş verən qanlı hərbi əməliyyatlara son qoydu. Bu sazişlə əldə edilən sabitlik illəri gələcəkdə ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində atılacaq strateji addımlar üçün əsas rol oynadı. Eyni zamanda, bu sabitlik gələcək inkişafımızın mayakı olan "Əsrin müqaviləsi"nə doğru mühüm bir yol açdı. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın aparıcı neft şirkətləri ilə imzalanan və tarixə "Əsrin müqaviləsi" kimi düşən razılaşma Azərbaycanın enerji strategiyasında yeni bir mərhələnin başlanğıcı oldu. Bu müqavilə ölkənin zəngin neft-qaz ehtiyatlarının beynəlxalq bazarlara çıxarılması üçün real və dayanıqlı imkanlar yaratdı. Müqavilə Azərbaycanın geosiyasi mövqeyini gücləndirərək onu enerji təhlükəsizliyi və enerji marşrutlarının şaxələndirilməsi baxımından regionda və Avropada əhəmiyyətli aktorlardan birinə çevirdi. "Əsrin müqaviləsi" ilə təməli qoyulan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri kimi transmilli layihələr Azərbaycanın qlobal enerji bazarlarında söz sahibinə çevrilməsini təmin etdi. Eyni zamanda, bu saziş ölkənin sosial-iqtisadi inkişafının əsas sütunlarından birinə çevrildi. Yeni iş yerləri yaradıldı, büdcə gəlirləri artdı, regionların inkişafı sürətləndi və ümumilikdə müstəqil dövlətin möhkəmlənməsi istiqamətində mühüm nailiyyətlər əldə olundu.

Həmin dövrdə ölkənin müdafiə qabiliyyətinin artırılması prioritet məsələyə çevrilmişdi. Heydər Əliyev ordu quruculuğuna strateji yanaşma sərgiləyərək qanunsuz silahlı dəstələrin tərksilahını və birləşmiş, vahid komandanlığa tabe nizami ordunun formalaşdırılmasını təmin etdi. Hərbi təhsil sahəsində ciddi islahatlar aparıldı, zabit heyətinin hazırlanması və maddi-texniki təminat sistemi təkmilləşdirildi. Müdafiə sənayesi sektorunun əsası qoyularaq müasir hərbi texnika və silah-sursat istehsalı üçün ilk addımlar atıldı.

Ulu Öndər Heydər Əliyevin gərgin səyləri sayəsində 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi ilə Azərbaycanın ilk müstəqil Konstitusiyası qəbul edildi. Bu sənəd ölkədə insan hüquq və azadlıqlarının təminatını rəsmi şəkildə müəyyənləşdirdi. Konstitusiya demokratik idarəetmənin, qanunun aliliyinin və vətəndaş cəmiyyətinin bünövrəsini təşkil etdi.

Əldə olunan uğurlar Ümummilli Lider Heydər Əliyevin uzaqgörən, balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursu ilə birbaşa bağlı idi. Onun rəhbərliyi ilə Azərbaycan müstəqilliyini qoruyub saxlamaqla yanaşı, beynəlxalq münasibətlər sistemində mövqeyini möhkəmləndirdi.

Sosial sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər əhalinin rifahının yüksəldilməsinə yönəldi. Təhsil sistemində müasir yanaşmalar tətbiq olunaraq dərs proqramları yeniləndi. Səhiyyə sektorunda dövlət proqramları qəbul olundu, kadr çatışmazlığı tədricən aradan qaldırıldı və tibbi xidmətlərin keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Bütün bu tədbirlər əhalinin həyat səviyyəsinin yüksəldilməsinə birbaşa müsbət təsir göstərdi.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətində gənclər hər zaman prioritet istiqamət kimi müəyyən olunmuşdu. Onun təşəbbüsü ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı və bu sahədə dövlət dəstəyi ardıcıl, məqsədyönlü və institusional xarakter aldı. Respublikada geniş idman infrastrukturu quruldu, Olimpiya İdman Komplekslərі inşa olundu, beynəlxalq yarışlarda iştirak edən gənclərə sistemli dəstək göstərildi. Heydər Əliyev dəfələrlə vurğulayırdı ki, idman yalnız fiziki inkişaf vasitəsi deyil, həm də milli ruhun, vətənpərvərliyin və intellektual potensialın formalaşmasında mühüm rola malikdir. Bu yanaşma nəticəsində Azərbaycan gəncliyi ölkənin inkişafında daha fəal iştirak etməyə başladı və beynəlxalq arenalarda dövlətimizin layiqli təmsilçisinə çevrildi.

Milli Qurtuluşdan sonra formalaşan güclü idarəetmə modeli, hüquqi islahatlar, milli həmrəylik və ordu quruculuğu kimi sahələrdə atılan ardıcıl addımlar Azərbaycanın gələcək taleyində həlledici rol oynadı. Bu dövrdə həyata keçirilən strateji qərarlar dövlətin sabitliyi, təhlükəsizliyi və suverenliyinin təmin olunmasına yönəldi. Güclü dövlətçilik konsepsiyası formalaşdı və uzunmüddətli milli hədəflərə çatmaq üçün əsaslı zəmin yaratdı.

Ulu Öndərin müəyyən etdiyi strateji inkişaf xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan müasir çağırışlara uyğun olaraq daha da qüdrətləndi, siyasi, iqtisadi və hərbi gücünü əhəmiyyətli şəkildə artırdı. Ölkəmizin beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi tanınması, müstəqil və prinsipial siyasət yürütməsi bu liderliyin nəticəsi idi. Strateji siyasətin məntiqi yekunu olaraq 2020-ci ilin payızında baş vermiş 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Zəfərə imza atdı və 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. 2023-cü ilin sentyabrında keçirilmiş lokal antiterror tədbirləri ilə dövlətin suverenliyi tam təmin olundu.

15 İyun - Milli Qurtuluş Günü Azərbaycan xalqının müdrik seçimindən qaynaqlanan, ölkəmizin xilası və inkişafı təmin edən əlamətdar hadisədir. Ümummilli Lider Heydər Əliyevin qurduğu möhkəm təməllər üzərində Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbələr ölkəmizin parlaq gələcəyini təmin edən strateji hədəflərlə birbaşa bağlıdır.



**Anar Nəbiyev,**

**YAP Qazax rayon təşkilatının sədri**

# Yubilyar haqqında maraqlı kitab

Tanınmış yazıçı Xeyrəddin Qocanın anadan olmasının 75 illiyi münasibətilə "Molla Nəsrəddin" yolu" adlı yeni kitab işıq üzü görüb. AZƏRTAC xəbər verir ki, "Mütərcim" nəşriyyatında nəfis şəkildə çap olunan kitabda son 10 ildə yazıçı haqqında dövrü mətbuatda dərc olunmuş məqalələr, həmçinin yubilyarın yeni hekayələri və pyesləri toplanıb.

Kitabda akademik İsa Həbibbəylinin "Satirik qələmlə mübariz keşikdə", akademik Nizami Cəfərovun fikirləri əks olunan "Akademik Nizami Cəfərovun dedikləri", AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Gülbəniz Babayevanın "Molla Nəsrəddin" ədəbi məktəbinin layiqli davamçısı", filologiya üzrə fəlsəfə doktoru Alqış Musayevin "Yazıçı, publisist, diplomat", Sərvaz Hüseyinoğlunun "Siyah içindəymiş sədəf sən demə..." kimi dəyərli yazıları, bir sıra qələm adamlarının, elm, mədəniyyət, incəsənət xadimlərinin fikir, mülahizə və düşüncələri yer alıb.

Maraqlıdır ki, məqalələrin hamısında Ümummilli Lider Heydər Əliyevlə Xeyrəddin Qocanın unudulmaz, xoş münasibətləri və görüşləri haqqında fikirlər qırmızı xətlə keçir.

Yazıçının 40-a yaxın yeni hekayələri, "Zamanın ruzigarı", "Bu da axırı.. " adlı pyesləri, səhnələşdirilmiş əsərlərinin afişaları, bəzi tamaşalarından səhnələr, ona həsr olunmuş "Dostluq şarj"ları, satirik hekayələrinə çəkilmiş güluş dolu illüstrasiyalar kitabın məziyyətlərini daha da artırır.

"Molla Nəsrəddin" yolu" kitabının tərtibçisi gənc yazıçı Selcan Muradzadədir. Onun gərgin axtarışları və əməyi sayəsində oxuculara nəfis, yaddaqalan bir kitab təqdim olunub.



# Azərbaycanın nümunəvi tolerantlıq modeli...

Sirr deyil ki, dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır. Ayrı-ayrı dinlərin təhlükə mənbəyi kimi aşılandığının, daha çox müsəlmanlara qarşı şübhə, ayrı-seçkiliyin daha geniş yayıldığının şahidi oluruq. Azərbaycan da islamofobiyadan əziyyət çəkən ölkələrdəndir. Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv olunmasıdır. Bununla belə, multikulturalizmi həyat tərzinə çevirmiş Azərbaycan dünyada tolerantlıq nümunəsi sayılır. Ölkəmizdə fərqli dini və etnik kimliyə malik xalqlar dostluq və qardaşlıq mühitində yaşayırlar. Azərbaycan daima Qərb ilə Şərqin, sivilizasiyaların arasında körpü rolunu oynayıb.

Məlumdur ki, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir. Başqa sözlə desək, dini və milli çoxkonfessiyalı olmamız bizim üçün xüsusi üstünlükdür. Multikultural dəyərlərə hörmət dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

**Ölkəmizin multikultural yaşamı...**

Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır. Azərbaycanın təlqin etdiyi tolerantlıq modeli beynəlxalq aləm üçün ardıcıllığa söykənmiş nümunədir. Ölkəmizdə dinlər və millətlərarası münasibətlər mühitinin daha da stabil və tolerant forma almasına yönəlik addımların aydın mənası və hədəfi var. Azərbaycan hələ uzun illər öncədən dünyanın belə təhlükəyə doğru itələndiyinin əlamətlərini gördü və qabaqlayıcı addımlar atdı. Saysız beynəlxalq konfrans və simpoziumlar, sivilizasiyalararası dialoq tədbirləri və sair təsadüfi addımlar deyildi.

Paralel olaraq Azərbaycan dünya üçün bir nümunə forlaşdırdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən dövlət siyasətinin mahiyyətində sülh və bərabərlik tendensiyası açıq ştrixlərlə yer almaqdadır. Beləliklə, Azərbaycan həm multikulturalizmin ən mükəmməl model mərkəzinə çevrilir, həm də müasir dünyada çox təhlükəli şəkil almaqda olan islamofobiya və neokolonializm kimi cinayətlərə qarşı qlobal mübarizə mərkəzi kimi çıxş edir. Məhz Azərbay-



canın təşəbbüslərinin sayəsində ayrı-seçkilik və ya seqreqasiya cinayətinin mahiyyəti haqqında dünyanın siyasi və hüquqi təsəvvürləri daha da genişlənib. Artıq dünya daha sıx qəbul etməyə başlayır ki, islamofobiya və neokolonializm ayrı-seçkilik cinayətinin ən müasir və ən təhlükəli formalarıdır.

**İslamofobiya sadəcə, dini dözümsüzlük deyil**

Bu günlərdə "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfransın açılış mərasimi baş tutub. Konfransda iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov qeyd edib ki, islamofobiyaya meyillilik son illərdə bütün dünyada artır və bu, artıq təkcə fərdi münasibətlər səviyyəsində deyil, rəqəmsal media platformalarında da müşahidə olunur. Onun sözlərinə görə, islamofobiya sadəcə, dini dözümsüzlük deyil: "Bu, eyni zamanda, sosial-psixoloji problemdir, cəmiyyətlərdə gərginlik və qarşıdurma toxumu səpir. Siyasi və ideoloji məqsədlərlə istifadə olunduqda isə daha təhlükəli forma alır. Qeyri-tolerantlıq bir millətin və ya fərdin problemi deyil, bu, ölkələri geri salan, cəmiyyətlərin inkişafını ləngidən zərərli yanaşmadır".

**Azərbaycan nümunəvi ölkələrdən biridir**

Komitə sədri bildirib ki, İslamofobiya ilə mübarizə apararkən onun yalnız təzahürlərinə deyil, eyni zamanda, köklərinə də nəzər salmalıyıq: "Bu kökləri anlamaq, onları ifşa etmək və aradan qaldırmaq üçün daha genişmiqyaslı, strateji yanaşmalar tətbiq edilməlidir. Bu məsələdə multikulturalizm təcrübəsi olan ölkələrdən nümunə götürmək böyük əhəmiyyət daşıyır. Azərbaycan bu baxımdan nümunəvi ölkələrdən biridir. Ölkəmizdə yaşayan hər bir şəxs dini və etnik mənsubiyyətindən asılı olmayaraq özünü tamhüquqlu vətəndaş kimi hiss edir. Azərbaycan cəmiyyətində hökm sürən qarşılıqlı hörmət və tolerantlıq, multikultural dəyərlərin dövlət siyasətinin ayrılmaz hissəsi olması islamofobiyaya ən güclü cavablardan biridir".

***YEGANƏ***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır

# Mərkəzi Bank uçot dərəcəsini dəyişmədi

Mərkəzi Bankın (AMB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7,25 faiz, eyni zamanda, müvafiq olaraq, faiz dəhlizinin aşağı həddi 6,25, yuxarı həddi isə 8,25 faiz səviyyəsində dəyişməz saxlanılıb. Yəni MB 40 gün əvvəl açıqladığı sonuncu qərarından sonra uçot siyasətində yenə də dəyişiklik etməyib. Uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəfdə (4±2 faiz) olması, inflyasiyanın daxili və xarici amillərinin dinamikası nəzərə alınmaqla qəbul olunub.

Uçot dərəcəsi ilə bağlı qərar faktiki inflyasiyanın proqnoz inflyasiya trayektoriyasına uyğunluğu, proqnozlaşdırılan inflyasiyanın hədəflə (4±2%) müqayisəsi, son qlobal iqtisadi proseslərin mümkün təsirləri, daxili makroiqtisadi vəziyyət, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü nəzərə alınmaqla qəbul edilib. MB bildirir ki, illik inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. 2025-ci ilin aprelində 12 aylıq inflyasiya 6,3 faiz, aylıq inflyasiya isə 0,3 faiz təşkil edib. İllik qiymət artımı ərzaq malları və xidmətlər üzrə 7,6 faiz, qeyri-ərzaq malları üzrə isə 2,7 faiz təşkil edib. İllik baza inflyasiya isə 4,8 faiz olub.

## Xarici sektor göstəriciləri əlverişlidir

Mərkəzi Bankın açıqlamasından aydın olur ki, ötən iclasdan bəri inflyasiyanın risk balansında əhəmiyyətli dəyişikliklər baş verməyib. Potensial inflyasiya təzyiqləri yarada biləcək qlobal risklərə mövcud geosiyasi gərginlik və ticarət müharibələri fonunda beynəlxalq əmtəə bazarlarında qiymətlərin mümkün dəyişkənliyi aiddir.

Beynəlxalq Valyuta Fondunun məlumatına görə 2025-ci ilin mayında əmtəə qiymətləri indeksi aylıq 1 faiz, illik isə 4,6 faiz azalıb. Ticarət tərəfdaşlarının orta çəkili illik inflyasiyası cari ilin aprelində ötən ilin eyni ayına nəzərən 9,6 faiz olub. Manatın qeyri-neft-qaz sektoru üzrə nominal effektiv məzənnəsi 2025-ci ilin may ayında ötən ilin eyni ayı ilə müqayisədə sabit qalıb. Xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Dövlət Gömrük Komitəsinin məlumatına görə 2025-ci ilin 4 ayında da xarici ticarət balansında müsbət saldo qeydə alınıb. 2025-ci və 2026-cı illərin yekunu üzrə tədiyə balansının cari hesabının profisitli olacağı proqnozu dəyişməz qalır.

Yüksək qlobal qeyri-müəyyənlik, xüsusən də bəzi ölkələrdə milli valyutaların məzənnələrindəki dəyişikliklərin və tarif artımlarının inflyasiya proseslərinə təsirlərinin qiymətləndirilməsi üçün faiz dəhlizi parametrlərinin dəyişdirilməsində pauzanın götürülməsi zərurəti yaranır. İnflyasiyanı artıra biləcək daxili risk faktorları kimi isə xərc amillərinin aktivləşməsi və məcmu tələbin izafi artımı qeyd oluna bilər. Həmçinin kredit aktivliyinin qiymət sabitliyinə mümkün təsirləri daim izlənilir.

## Beynəlxalq institutlar nə deyir?




İnflyasiya ilə bağlı beynəlxalq institutların gözləntiləri də sabit dəhliz çərçivəsinin qorunub saxlanılacağından xəbər verir. "S&P Global" (S&P) beynəlxalq reytinq agentliyi 2025-ci ildə Azərbaycanda orta illik inflyasiyanın 4 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Təşkilatın dünya ölkələrində qiymət indeksi ilə bağlı yeni hesabat sənədində qlobal inflyasiya göstəricisinin cüzi artacağına dair ehtimallar əksini tapıb. "S&P"nin proqnozlarına görə, ölkəmizdə inflyasiya cari ilin sonunda azalmağa doğru istiqamətlənəcək, 2026-cı ildə isə bu rəqəm 3 faizə düşəcək.

Digər beynəlxalq maliyyə institutlarının gözləntiləri də təxminən eynidir. Birləşmiş Millətlər Təşkilatı (BMT) Azərbaycanla bağlı inflyasiya gözləntiləri cari il üzrə 3,6 faiz, 2026-cı il üzrə isə 3,1 faizə bərabərdir. Niderlandın "ING Group"unun apardığı qiymətləndirmədə isə ölkəmizdə istehlak qiymətlərinin 2025-ci ildə 4,8 faiz, 2026-cı ildə isə 4,7 faiz olacağına dair ehtimallar yer alıb.

İqtisadiyyat Nazirliyinin proqnozlarında isə ölkəmizdə illik inflyasiyanı 2025-ci ildə 4,6 faiz, 2026-cı ildə 4 faiz səviyyəsində olacağı fərz edilir.

## Anti-inflyasiya tədbirləri diqqətdə saxlanılacaq

Mövcud pul siyasəti inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya göz-




ləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb ediləcək

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olacaq. Mərkəzi Bank öz mandatına uyğun olaraq qarşıdakı aylarda da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcək. Faktiki və proqnozlaşdırılan inflyasiyanın azalacağı təqdirdə faiz dəhlizi parametrlərinin azaldılması imkanları nəzərdən keçirilə bilər. Bununla yanaşı, MB inflyasiya risklərinin reallaşması halında adekvat reaksiya verəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat aprel ayının 23-də ictimaiyyətə açıqlanacaq və bununla bağlı mətbuat konfransı keçiriləcək.

***E.CƏFƏRLİ***

# Türk dövlətlərinin iş dünyasının ən böyük görüş yeri

Son illərdə Türk Dövlətləri Təşkilatında (TDT) birləşən ölkələr arasında inteqrasiya müxtəlif platformalar üzərindən əhəmiyyətli dərəcədə dərinləşib, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq üçün yeni imkanlar yaranıb. Bu günlərdə Türkdilli ölkələrin təmsilçiləri Baku Expo Mərkəzində II Türk Ticarət Sərgisi - Türk Dövlətləri Ticarət və İnvestisiya Əməkdaşlıq Forumu və Sərgisində bir araya gəliblər.

## 11 iştirakçı, 20-dən çox ziyarətçi ölkə



II Türk Ticarət Sərgisi - Türk Dövlətləri Ticarət və İnvestisiya Əməkdaşlıq Forumu Kiçik və Orta biznesin İnkişafı Agentliyi (KOBİA) və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) tərəfdaşlığı, Kiçik və Orta Biznesin Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və "ROK Expo" şirkətinin təşkilatçılığı ilə baş tutub. Xatırladaq ki, ilk Türk Ticarət Sərgisi Türkiyə Ticarət Nazirliyinin himayəsində, Türk Dövlətləri Təşkilatı - Türk Ticarət və Sənaye Palataları Birliyinin əməkdaşlığı, "Rok EXPO" şirkətinin təşkilatçılığı ilə ötən il noyabrın 7-9-da İstanbul Sərgi Mərkəzində təşkil olunmuşdu.

Türk Ticarət Sərgisi Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası arasında ticarət, sənaye, investisiya, texnologiya və xidmətləri inkişaf etdirmək və bu xidmətlərin dünyanın digər yerlərində marketinqini asanlaşdırmaq məqsədi daşıyan 8 ölkənin dövlət qurumları tərəfindən dəstəklənən, türk dövlətlərinin iş dünyasının ən böyük görüşü olan sərgi və forumdur.

Sərgidə 20-dən çox sahə üzrə məhsullar və yeni texnologiyalar sərgilənib, ölkələrin investisiya imkanları, mühüm sektorlar, iş insanlarının problemləri, həlli təklifləri və digər aktual məsələlər ekspert məruzəçilərlə müzakirə olunub, ikitərəfli (B2B) və "franchise" görüşləri ilə şirkətlərin strateji tərəfdaşlıqları inkişaf etdirilib. Tədbirdə Türk dövlətlərinin ortaq brendlərinin yaradılması da gündəmdə olub. Sərgidə 11 ölkə iştirakçı, 20-dən çox ölkə isə ziyarətçi kimi iştirak edib.

## Böyük coğrafiyada güclü iqtisadi potensial

Qarşılıqlı əlaqələrin möhkəmlənməsində tarixi amillərlə yanaşı, güclü iqtisadi potensial da mühüm rol oynayır. Mütəxəssislərin qənaətinə görə, təşkilat daxilində iqtisadi və ticari əməkdaşlığı daha sistemli şəkildə əlaqələndirmək mümkündür. Hazırda Türkdilli ölkələr yeni regional əməkdaşlıq modeli yaradırlar. Deyə bilərik ki, regionun yeni iqtisadi xəritəsi formalaşmaqdadır. Forumda TDT-da birləşən ölkələrin iqtisadi potensialına diqqət çəkilib. Bildirlib ki, hazırda Türk dövlətləri dünya ticarətinin 3,5 faizini təmin edir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, planetin ərazisinin təxminən 1 faizini, əhalisinin isə 2,8 faizini təşkil edən Türk dünyasının ümumi daxili məhsulunun illik dəyəri 2,1 trilyon ABŞ dollarını keçib: "Əgər Türk dünyasını vahid dövlət kimi qəbul etsək, bu coğrafiya dünyanın ən böyük 10 iqtisadiyyatından biri sayılardı. Türk dünyasının sənaye potensialı 540 milyard ABŞ dolları, kənd təsərrüfatı potensialı isə 140 milyard ABŞ dollarıdır. Bank sektoru və ümumilikdə maliyyə sektoru da sürətlə inkişaf edir.




2024-cü ildə Türk dünyasında bank aktivlərinin ümumi məbləği 1,4 trilyon dollara yaxınlaşıb. Bu da kifayət qədər ciddi göstəricidir və kapital bazarlarının da inkişafı gələcək üçün böyük imkanlar yaradır", - deyə İİTKM-nin rəsmisi vurğulayıb .

Bundan başqa, V. Qasımlı deyib ki, Türk dünyasında inteqrasiya və inkişaf prosesi sürətlə davam edir: "Avropa İttifaqının təqdim etdiyi "Global Gateway", Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü və Trans-Xəzər Orta Dəhliz layihələri Türk dünyasının coğrafiyası üzərində qurulub. 2024-cü ildə Türk dövlətlərinə investisiya qoyuluşu 440 milyard ABŞ dollarına yaxın olub, bunun 290 milyard dollardan çoxu Türkiyənin payına düşüb".

Forumda. "Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin prezidenti Zakir Nuriyev vurğulayıb ki, Türk dövlətləri arasında bank əməkdaşlığı daha da güclənməkdədir. "Trans-Xəzər qaz boru kəməri üzrə xərclərin optimallaşdırılması bu layihənin maya dəyərini potensial olaraq 40 faiz azalda bilər. Bu isə banklarımız üçün layihə maliyyələşdirilməsində uzunmüddətli alətlərə olan tələbi artırır", - deyə Z.Nuriyev əlavə edib.

## KOB subyektlərinə dəstək

Forum "Türk dövlətləri iqtisadiyyatı", "Türk dövlətlərində kənd təsərrüfatı ticarəti və imkanları", "Kommersiya mübahisələrinin həllində arbitraj və mediasiya", "Türk dövlətlərində rəqəmsal ticarət", "Türk dünyası biznes qadınları zirvəsi", "Akademik istiqamətlər", "Startaplar və investisiyalar", "Türk dünyasında medianın gücü" mövzularında panel müzakirələr təşkil olunub. Sərgi hissəsində isə 35-ə yaxın sahəni əhatə edən, o cümlədən ticarət, enerji, "yaşıl iqtisadiyyat", turizm, rəqəmsallaşma və digər sahələr üzrə məhsullar və qabaqcıl texnologiyalar nümayiş etdirilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi mikro və kiçik sahibkarlıq subyektlərinə dəstək məqsədilə tədbirdə xüsusi stendlə təmsil olunub. Agentliyin stendində 10-a yaxın KOB subyektinin əl işləri, Qarabağ abidələrini əks etdirən keramik sənət nümunələri, məntiq oyunları, alkoqolsuz içkilər, parfüm, tekstil məhsulları, bağ və ev dekorları, gigiyenik vasitələr, kərə yağı və s. məhsul və xidmətlər nümayiş etdirilib.

Bundan başqa, stenddə sosial baxımdan həssas kateqoriyaya aid şəxslərin məhsulları da sərgilənib. Məqsəd yerli KOB-ların məhsullarının xarici bazarlara, o cümlədən Türk dövlətlərinə ixracına, onların müvafiq ölkələrlə biznes əlaqələrinin qurulması və genişləndirilməsinə dəstək olmaqdır.

***Mübariz FEYİZLİ***

# ABŞ-dan xəbərdarlıq...

## Vaşinqton həyəcan təbili çalır

ABŞ İranla gərginlik fonunda Yaxın Şərqdə həyəcan təbili çalır. CNN-nin məlumatına görə, ABŞ Dövlət və Müdafiə Departamentləri rəsmi Vaşinqtonun Yaxın Şərq ölkələri - İraq, Bəhreyn və Küveytdəki səfirliklərində çalışan qeyri-vacib işçilərin, o cümlədən hərbçi ailələrin bölgədə artan təhlükəsizlik riskləri səbəbindən təxliyə olunmasına göstəriş verib. Eyni zamanda, Pentaqonun rəhbəri Pit Heqset hərbi qulluqçuların bölgədəki bazaları könüllü şəkildə tərk etməsinə icazə verib. ABŞ-ın Yaxın Şərqdəki öz vətəndaşlarını tez bir zamanda bölgədən təxliyə etməsinin arxasında bir sıra səbəblər dayanır. Belə ki, ABŞ rəsmiləri İsrailin İrana qarşı hərbi əməliyyat keçirməyə hazır olduğu barədə məlumat alıb. Amerikanın CBS telekanalı məlumat verib ki, Vaşinqton İranın İsrailin hücumlarına cavab olaraq İraq və Körfəz ölkələrindəki ABŞ-ın mülki və hərbi obyektlərinə raket zərbələri endirəcəyindən narahatdır. Dövlət Departamentinin ABŞ səfirliyinin bəzi əməkdaşlarının İraqı tərk etməsini əmr etməsinin səbəblərindən biri də budur. Artıq ABŞ Yaxın Şərqdə qırıcı və yanacaq dolduran təyyarələrini də hazırlıq vəziyyətinə gətirib. İran tərəfi də ciddi hazırlıqlara başlayıb. İran KİV-ləri qeyd edirlər ki, ölkənin Buşeyr, Natanz və Yəzddə yerləşən nüvə obyektlərin ətrafına əlavə qüvvələr cəlb edilib.

### Hücum, yoxsa sanksiya?



Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, İsrail ilə İran arasında növbəti hərbi qarşıdurma ABŞ-ın Yaxın Şərq ölkələrindəki səfirliklərini və hərbi bazalarını təhlükə altına qoya bilər. "Məlum olduğu kimi, ABŞ ilə İran arasında nüvə proqramı ətrafında danışıqlar dalana dirənib. Son iki ayda Omanın vasitəçiliyi ilə danışıqların beş raundu baş tutub. Son görüşdə altıncı raundun keçirilməsi də razılaşdırılmışdı. Amma bir neçə gün bundan öncə ABŞ rəsmiləri növbəti görüşün təxirə salındığını bəyan etdilər. Bu görüşün baş tutmamasının səbəbinə gəlincə, qeyd edim ki, bu günə qədər keçirilən danışıqlarda ciddi bir nəticə əldə olunmayıb. Bu prosesin sonu da İrana qarşı hücum əməliyyatlarının həyata keçirilməsi ilə nəticələnə bilər. Düzdür, Ağ Ev İrana qarşı hücumların əleyhinədir, ancaq danışıqlarda müsbət bir nəticə əldə olunmadıqda, böyük ehtimalla, proses buna doğru gedəcək", -deyə Ə.İbrahimov vurğulayıb. O qeyd edib ki, İsrail İranın nüvə obyektlərinə hücum əməliyyatlarının təşkil olunmasında israrlıdır. Onun sözlərinə görə, İsrail ABŞ-ı buna təhrik edir: "Vaşinqton İranla olan problemlərin diplomatik yolla həll olunmasında maraqlıdır, amma bununla paralel Tehrana qarşı təzyiq rıçaqlarından da istifadə edir. Tramp son çıxışlarında bəyan etmişdi ki, İran ya öz nüvə proqramından imtina etməlidir, ya da yeni ağır sanksiyalarla üzləşməlidir".

### ABŞ nədən narahatdır

"ABŞ-ı ən çox narahat edən məsələ budur ki, İsrail Vaşinqtonun icazəsi olmadan İrana qarşı hücum əməliyyatı keçirə bilər. Bildirim ki, İsrail bir neçə dəfə Vaşinqtonu məlumatlandırmadan İranın ərazisində dron hücumları təşkil etmişdi. İran da öz növbəsində buna qarşılıqlı cavab verdi. Əgər İsrail növbəti dəfə İranın ərazisinə hücumlar təşkil edərsə, Tehran yenə də İsrailə raket zərbələri endirəcək. Belə bir vəziyyətdə ABŞ-



ın regiondakı strateji obyektləri də təhlükə altında olacaq. İraq, Küveyt və Bəhreyndəki ABŞ səfirliklərində və hərbi bazalarında təhlükəsizlik tədbirləri məhz bundan qaynaqlanır", -deyə Ə.İbrahimov bildirib.

*Yunis ABDULLAYEV*

# "Ramştayn" platformasından Ukraynaya rekord hərbi dəstək...

## Sonuncu görüşdə platformaya üzv ölkələr önəmli qərarlar qəbul ediblər

Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun ("Ramştayn" formatı) son toplantısında Ukraynaya müttəfiqləri tərəfindən böyük həcmdə hərbi dəstək göstərilməsi qərara alınıb. Sayca 28-ci görüş Brüsseldə keçirilib. Belə bir qərar Tramp administrasiyası tərəfindən Kiyevə dəstəyin zəifləməsi fonunda baş verib.

Ukrayna müdafiə naziri Rustem Umerov qeyd edib ki, Ukraynanın mühüm nəticələri var. Nazirin sözlərinə görə, 2025-ci ildə təhlükəsizlik yardımı tammiqyaslı müharibənin bütün əvvəlki illərinin rəqəmlərini üstələyəcək: "Görüşdən sonra tərəfdaşlarımız yeni yardım paketləri və mühüm dəstək addımlarını açıqladılar".

### Əsas yardımlar Avropa ölkələrinin payına düşür



Belə ki, Böyük Britaniya pilotsuz təyyarələrin tədarükü üçün rekord məbləğdə - 350 milyon funt-sterlinq dəyərində yardım elan edib. Nazirin sözlərinə görə, bu, Ukraynaya 2025-ci ildə 100 min pilotsuz uçan aparatı ötürməyə imkan verəcək. Ümumilikdə, 2025-ci ildə Britaniyanın hərbi dəstəyi 4,5 milyard funt-sterlinq təşkil edir ki, bunun da 247 milyon funt-sterlinqi Ukrayna Silahlı Qüvvələrinin təliminə sərf olunacaq.

Almaniya isə 5 milyard avro dəyərində yeni hərbi yardım paketini elan edib. "Bundestaq artıq bu qərarı təsdiqləyib", - deyə Umerov bildirib. Paketə, xüsusən də Ukraynada istehsal olunacaq uzaqmənzilli silahların maliyyələşdirilməsi, hava hücumundan müdafiə sistemlərinin, silah və sursatların ötürülməsi daxildir. Bu arada Almaniyanın müdafiə naziri Boris Pistorius iyunun 12-də Ukraynanın paytaxtı Kiyevə gözlənilməz səfər edib. Almaniyanın DPA agentliyinin məlumatına görə, nazirin səfəri əvvəlcədən elan olunmayıb. O, səfər zamanı mövcud vəziyyətlə tanış olub və Ukrayna rəhbərliyi ilə yeni hərbi yardımın göstərilməsini müzakirə edib.

Niderland da Kiyevə 400 milyon avro dəyərində yardım paketi təqdim edib. Buraya mina əleyhinə gəmi, qayıqlar və dəniz dronları daxildir. Belçika isə uzunmüddətli bir təşəbbüs elan edib. Ukraynaya 2029-cu ilə qədər 1 milyard avro məbləğində illik yardım edəcək. Norveç də Ukrayna müdafiə sənayesini dəstəkləmək üçün pilotsuz təyyarələr üçün 700 milyon dollar ayıracaq.

Kanadaya gəlincə, bu ölkə dronlar, elektron müharibə sistemləri, İT həlləri, həmçinin zirehli maşınlar üçün 45 milyon dollar, İsveç Ukrayna üçün artilleriya sursatlarının, pilotsuz təyyarələrin və digər silahların alınması üzrə beynəlxalq proqramlar üçün 440 milyon avro ayıracaqlarını açıqlayıb.

### Yeni koalisiya niyə yaradılıb?

Qeyd edək ki, "Ramştayn" qrupunun bundan əvvəl-aprelin 11-də keçirilən görüşündə də Kiyevə 21 milyard avrodan (23,85 milyard dollar) çox məbləğdə dəstək elan edilmişdi. Bundan başqa, həmin görüşdə radioelektron mübarizəsi koalisiyasının yaradılması elan edilib. Artıq 11 ölkə, o cümlədən Ukrayna da bu koalisiyaya qoşulub. Ukraynanın müdafiə naziri Rustem Umerovun sözlərinə görə, yeni koalisiya avadanlıqların alınması, mütəxəssislərin hazırlanması və elektron müharibə sahəsində siyasət və doktrinaların hazırlanması işini həyata keçirəcək: "Elektron müharibə müasir hərbi münaqişələrin kritik tərkib hissəsidir. Effektiv elektron müdafiə olmadan heç bir bölmə tam döyüşə hazır ola bilməz. Koalisiyanın işə salınması



bizə səyləri əlaqələndirməyə və Müdafiə Qüvvələrinin ehtiyaclarına hərtərəfli cavab verməyə imkan verəcək". Nazir bildirib ki, koalisiya nəinki əsgərlərin cari ehtiyaclarını ödəyəcək, həm də imkanların uzunmüddətli inkişafı üçün zəmin yaradacaq.

Xatırladaq ki, dünyanın onlarla ölkəsinin iştirak etdiyi "Ramştayn" platforması Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun müntəzəm görüşlərinin adıdır. İlk görüş 2022-ci ildə Almaniyada yerləşən ABŞ-ın "Ramştayn" hərbi bazasında keçirilib və adını da oradan alıb. Bu iclasların məqsədi Ukraynaya Rusiyaya qarşı müharibədə hərbi yardımın koordinasiyası, müdafiə ehtiyaclarının müzakirəsi, silah tədarükü, hərbçilərin təlimi və uzunmüddətli dəstəklə bağlı məsələlərin həllidir. "Ramştayn" iştirakçıları NATO ölkələri, Avropa İttifaqı dövlətləri və Ukraynanın digər tərəfdaşlarıdır. Bu görüşlər tanklar, hava hücumundan müdafiə sistemləri, artilleriya və digər silah növlərinin verilməsi ilə bağlı qərarların qəbul olunduğu əsas platformaya çevrilib.

*N.BAYRAMLI*

# Gələcəkdə yazılmış kitab

## Herman Hessenin "Muncuq oyunu" romanı haqqında

əvvəli ötən sayımızda

Əsərdə hadisələrin yazıya alınma prosesi hələ dörd yüz il də bundan sonra - iyirmi beşinci əsrdə cərəyan eləyir. Təhkiyə əsasən baş qəhrəman, oyun magistri Yozef Knextin bioqrafiyasını qələmə almış Kastaliya tarixçisinin dilindən aparılır. Baş qəhrəman təhkiyəçidən təxminən iki yüz il əvvəl yaşayıb, salnaməçi onun həyat tarixçəsindən həm arxiv sənədlərinə, həm də dildən-dilə gəzən rəvayətlərə, əfsanələrə əsasən kitab bağlayıb.

Romanı şərti olaraq üç hissəyə bölmək olar: müqəddimədə Kastaliyanın tarixindən, burada formalaşmış ruhani ordenin iş prinsipindən, muncuq oyununun mahiyyətindən danışılır. Daha sonra təhkiyəçi ta uşaqlığından ölümünə qədər Knextin ömür yolunu izləyir. Bundan sonra müəllif oxucuya baş qəhrəmanın yazdığı şeirləri (xatırlayırsınızsa, "Doktor Jivaqo" romanında Pasternak da bu üsula əl atmışdı), bir də Knextin özünün qələmə aldığı üç müxtəlif tərcümeyi-halını - ayrı-ayrı zamanlarda, ayrı-ayrı məkanlarda, hər biri ayrı donda yaşanmış üç həyatının qəziyyəsini təqdim eləyir. Həmin avtobioqrafik pritçaları Knext hələ tələbə olanda ustadının sifarişiylə yazıbmış. Bu metod mənə buddizmin müqəddəs "Üç səbət"ində yer almış "Cataka" adlı bölümdə Qautamanın dünyaya insan cildində gələnə qədər canlı-cansız təbiətdə cürbəcür donlarda yaşadığı 547 ömrün təfsilatını elə o sayda təmsilvari hekayələrlə nağıl eləməsini xatırladır.

***

Girişdə Kastaliyanın keçmişindən danışan salnaməçi təqribən ötən əsrin birinci yarısından üzübəri keçən onillikləri "felyeton epoxası" adlandırır. Müəllif həmin səhifələrə satirik janra xas zəhərli istehza hopdurub. Felyeton epoxasında heç bir böyük sənət əsəri yaranmır, insanlar dərin düşünməkdən qaçırlar, hamı dayaz, əyləncəli qəzet yazılarıyla günün sovur. Belə məzmunsuz yazıları təkcə qəzet dəllalları, mətbuat alverçiləri, qondarma jurnalistlər yaymırlar, şairlərin, professorların da arasında elələri var. Felyeton qəhrəmanı nə qədər məşhur, mövzu nə qədər bayağı olursa, yazını dərc eləmiş qəzetə tələbat da bir o qədər artır.

Mətbuat böyük şəxsiyyətləri şou qəhrəmanı kimi qələmə verir, məşhurların həyat hekayələrini bulvar ədəbiyyatına, melodrama, lətifəyə çevirir, məqalələri bu kimi başlıqlarla təqdim eləyir: "Fridrix Nitsşe və on doqquzuncu əsrin yetmişinci illərində qadın dəbləri", "Bəstəkar Rossininin bəyəndiyi yeməklər", "Tanınmış kurtizanların həyatında ev tulalarının rolu". Tanınmış kimyaçı alimi, yaxud da pianoçunu qəliz siyasi proseslərlə bağlı sorğu-suala tuturlar, məşhur aktyoru, yaxud da balerinanı subaylığın mənfi-müsbət cəhətləri, pulun fəzilətləri haqda söhbətə çəkirlər. Dünyanın işlərindən, həyatın mahiyyətindən xəbərsiz oxucularsa belə yazıları sakitləşdirici dərman kimi qəbul eləyirlər.

Bir çoxu da qızıldan qiymətli vaxtını boş krossvord xanalarını doldurmaqla keçirir. Onlar siyasi, iqtisadi sarsıntıların hər gün silkələdiyi dünyada sabahkı günə inamsızlıqla, daim total xof altında, həyəcan içində yaşayırlar, o səbəbdən təskinliyi keçici əyləncələrdə tapırlar. Öz qorxularını yenməyə gücü çatmayan adamlar həqiqətə göz yumub qulaq tıxamaqla amansız gerçəklikdən qaçmağa çalışırlar. Kastaliya salnaməçisinin diliylə danışan müəllif bu qənaətə gəlir ki, belə bir sivilizasiyanın mənəvi potensialı tükənib, buna görə də "felyeton epoxasını" doğurmuş sivilizasiya çürüməyə məhkumdur. Bu fəlakətin qarşısını almaq üçün Herman Hesse Kastaliya modelini irəli sürür.

Hessenin proqnozu bir vaxt qitədə böyük populyarlıq qazanmış "Avropanın qürubu" traktatında Osvald Şpenqlerin çağdaş sivilizasiyaya verdiyi möhlətlə aşağı-yuxarı üst-üstə düşür. Böyük yazıçı dövrümüzün mənzərəsini bəsirət gözüylə çox aydın görüb. Həqiqətən, çoxdandır yer üzündə böyük sənət əsərləri, böyük ədəbiyyat yaranmır, yeni ümumbəşəri ideya meydana gəlmir. Yaranan da köhnənin yenidən emal olunmuş versiyasından başqa bir şey deyil. İndiki zamanda hətta buna da şükür eləməyinə dəyər, çünki artıq çoxları mənəviyyatın qısırlığıyla barışıb, hətta ağıllı adamların da böyük əksəriyyəti ifrat həddə maddiləşmiş tacir-tüccar dünyasında ruhun yeni möcüzələr yaradacağına inanmır. Halbuki tək bir ideya, yalnız bircə böyük ideya həyatın bütün sahələrini çəkib arxasınca aparmağa qadirdir. Quran nə deyir - Allahdan başqa heç kimsə qüdrət və əzəmət sahibi deyil. Bəli, ideyada Allah gücü var, ideya elə Tanrının özüdür. Şübhəsiz, o güc-qüdrət bundan sonra da özünü göstərəcək...

***

Belə bir qarışıq zamanda parlaq zəkalar, işıqlı başlar birləşib dövlət içində dövlət - ruhlar diyarı Kastaliya respublikasını yaradıblar. Bura ölkədən də çox aktiv ruhların passiv bədənlərə hökm verdiyi monastır, tənha könüllərin cəmləşdiyi xanəgahdır. Kastaliya texnokratik cəmiyyətin razılığıyla yaradılıb, gündəlik cismani qayğılara başı qarışmış insanlar öz ruhlarını bu utopik respublikaya ezam eləyiblər. Kastaliya sakinləri kənar dünyaya seyrçi mövqedən baxırlar. Seçilmişlərin qatıldığı muncuq oyunu onları bir ideya, bir məşğuliyyət ətrafında birləşdirir. Bu oyun bəşəriyyətin yaratdığı mənəvi dəyərlərin universal şərti işarəsi, kainatın məna, mahiyyət sandığına vurulmuş kilidin şifrəsidir. Bütün mənəvi dəyərlər, bütün sənət möcüzələri, elmi kəşflər burada bir vahid, bölünməz dəyər halına gətirilir. Muncuq oyunu yarışları radio vasitəsiylə bütün ölkəyə translyasiya olunur, Kastaliyanın özündə isə zaman keçmişdə ilişib qalıb, orada hələ də atlaqla hərəkət eləyirlər.

Kastaliya Platonun filosofların idarəçiliyinə verdiyi ideal dövlətə (əslində, ideal cəmiyyətə) bənzəmir, burada sərt iyerarxik sistem hökm sürmür, hər kəs başqalarından da, özündən də azaddır. Bura kilsə yox, monastır, məscid yox, xanəgah sayıla bilər. Kastaliya icmasının həyat tərzi xristianlardan çox buddistlərin yaşayışına bənzəyir, burada tək çoxluqda əriyib itmir, ümumi işə qoşulan hər bir fərd öz muxtariyyətini, ayrıcalığını qoruyub saxlayır. Kastaliyanın torpaqda kökləri yoxdur, bu məmləkət yerə, maddi dünyaya nazik tellərlə bağlıdır. Bu səbəbdən sakinlərin real həyata əli girmir, onlar ölkədən çöldəki böyük ölkənin qərarlarından, tacirlərin maliyyə yardımından, generalların silahlı mühafizəsindən asılıdırlar. Çox güman ki, müəllif bununla ruhun bədəndən asılılığına işarə vurur: gerçəkdən, can öz qayğısına qalmasa, özünü qorumasa, qəlbin evi başına uçar, bədən əldən getsə, ruhun əlindəki vasitələr də puça çıxar, ruh gerçək aləmlə təmas imkanlarını itirər. Əgər bədən yiyəsinə qarşı çıxmırsa, özünü ruhun xidmətçisi kimi aparırsa, bu dünyadakı yaşayışına halallıq qazandırmış olur. Kastaliyanın içiylə çölünün arası da ayrıca götürülmüş hər bir fərdin ruhuyla cisminin arası qədərdir.

Beləliklə, Pifaqor məktəbi, pifaqorçular icması kimi dünyadan təcrid olunmuş Kastaliya mənəvi dünyanın simvoludur. Buradakı sakinlərin topası bir ruhani ordenin üzvləri, mənəviyyat əsgərləridir. Orden bir az qədim, bir az da orta əsr ruhani birliklərinin, sektalarının prinsipləri əsasında qurulub. Muncuq oyununda irəliləyən hər kəsin zaman keçdikcə adı, rütbəsi artırılır. Məsələn, Yozef Knext qırx yaşında oyun magistri dərəcəsinə yüksəlir, o yaşda belə bir rütbəyə çatmaq isə Kastaliya tarixində çox böyük uğur sayılır. Ordenin sıralarını genişləndirmək üçün kastaliyalılar istedadlı uşaqları ölkələrinə cəlb eləyir, onlara burada mükəmməl təlim keçir, uşaqlarda musiqiyə, fəlsəfəyə, riyaziyyata maraq oyadırlar. Böyüyəndən sonra həmin uşaqlar universitetlərdə oxuyur, ömürlərini elmə, incəsənətə, pedaqoji fəaliyyətə, yaxud da muncuq oyununa həsr eləyirlər. Muncuq oyunu yeni bir həqiqət hasilə gətirmir, sadəcə, təbiətdə, insan zəkasında, sənətdə mövcud olan çevrilmələri, kombinasiyaları aşkarlayıb üzə çıxarır, bir növ təsbit eləyir. Proses özünəxas meditasiya, askeza, nirvanaya zəmin hazırlayan zehni fəaliyyət növüdür. Bu zaman insan ruhu harmoniya, tarazlıq vəziyyətinə gəlir, dinclik qazanır, kamilləşir.

***

Müəllif mənəvi-intellektual fəaliyyətin zirvəsinə musiqini qoyur. Onun fikrincə, musiqinin qaynaqları çox uzaq, dərin keçmişlərdədir. Onun kökləri böyük vəhdətdən rişələnir. Bu vəhdət Allah deməkdir, o bütün ziddiyyətlərin qaynağı olsa da, özü təzaddan xalidir. Bu vəhdətdən törəyən varlığın iki başı, iki qütbü var, öz növbəsində o qütblərdən də qaranlıq qüvvələrlə işıqlı güclər doğulur. Kainatda dinclik olanda, hər şey canını dincə qoyanda musiqi də çılğınlıqdan əl çəkib sakitləşir, öz qaynağına qayıdıb yuxuya dalır. Arzular, ehtiraslar doğru yolla getməyəndə musiqi də coşub təkmilləşməyə uğrayır. Mükəmməl musiqinin möhkəm təməli var - o, müvazinətdən, tarazlıqdan yaranır. Tarazlıq düzüstlükdən, düzüstlük kainatın mənasından doğulur. Ona görə də musiqi haqqında yalnız dünyanın mənasını dərk eləyən adamla danışmaq olar. Musiqinin əcdadı yerlə göyün, zülmətlə işığın uzlaşdığı, barışdığı bir məqamda uyuyur.



**Fəxri Uğurlu**

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# "Tanrı adam"lar

## Albinizm haqqında Maarifləndirmə Günüdür

Dünyada qəribə hallar çoxdur - bəzən qaşları, saçları tamamilə ağ olan insanlar diqqəti cəlb edir. İnsanların onları diqqətlə izləmələrindən, baxmalarından narahat olanları da var. Bəzən belə insanların kompleksli olduğu iddia edilir - ancaq onlar da hər kəs kimi normal insanlardır. Sadəcə, dərilərinin rəngi ilə fərqlənirlər. Söhbət hələ qədim dönəmlərdə "Tanrı adamlar" adlandırılan albinoslardan gedir. Belə insanlara "fosfor adamlar" da deyilir.

Albinosların bəzisi düşünür ki, tanrı onları bu cür yaratmaqla yalnız bir piqmenti-melanini deyil, bütün azadlıqlarını alıb. Albinizm dəridə piqmentin anadangəlmə yoxluğudur və genetik xəstəlikdir. Belə insanlarda piqmentlər inkişaf etmədiyi üçün onların rəngi ağ olur. Albinizm insan dərisində, saçlarda və gözlərdə həmin hissələrin normal rəngini verən boya maddəsinin irsi olaraq yoxluğudur. Xəstəlik 3 cür olur: bütün bədəni əhatə edən albinizm, göz albinizmi və dəri albinizmi. Albinosların sümüklərinin tərkibində fosforun miqdarının həddən çox olması onları adi insanlardan fərqləndirən başlıca cəhətlərdən biridir.

### Gizli daşıyıcılar...

Albinoslar Günəşi heç sevmirlər. Çünki dəriləri Günəşə qarşı çox həssasdır. Onlar özlərini Günəş şüalarından qorumalıdırlar, əks təqdirdə dəri xərçənginə tutulmaq riskləri çox yüksəkdir. Genetiklərin araşdırmalarına görə, insanlarda albinizm geni, əslində, nadir deyil, sadəcə, çox vaxt bu gen aktiv olmur. Təxminən hər 70 min nəfərdən birinin onun gizli daşıyıcısı olduğu təxmin edilir.



Statistikaya görə, dünya əhalisinin təqribən 1 faizi albinosdur.

### Albinosların övladı mütləq albinos olur?

Mütəxəssislər albinizmdən əziyyət çəkənlərin övladlarının da böyük ehtimalla albinos olacağını bildirirlər. Ancaq bunu dəqiq demək olmaz. Çünki xəstəliyin özünün qanunları var. İrsi xəstəlik olduğu üçün dəqiq diaqnoz qoymaq mümkün deyil.

### Hər 20 min nəfərdən biri...

Bəzi Afrika ölkələrində cadugərlər albinosları öldürüb onların bədən üzvlərini kəsərək uğurgətirici amulet kimi satırlar. Hər il onlarla albinos öldürülür. Xüsusilə Tanzaniyada cadugərlər albinosların saç, qol, ayaq və qan kimi bədənlərindən alınan parçaları, insanları zəngin edəcəyi qarşıya qoyulan bir iksir istehsalında istifadə edirlər. Bu baxımdan bir çox ölkələrdə albinoslar hüquqlarını müdafiə etmək üçün öz təşkilatlarını yaradıblar.



### Albinizmin müalicəsi...

Hələ ki, tibbdə xəstəliyin tam müalicəsi yoxdur. Lakin araşdırmalara görə, genetika üzərində çalışan mütəxəssislər tərəfindən xəstəliyin tam müalicə edilməsinin yeganə yolu albinizmi yaradan xromosomun tapılması və idarə edilməsidir. Nə vaxtsa xromosomların idarəsi mümkün olsa, tam müalicə də tapıla bilər.

Artıq 11 ildir ki, iyunun 13-ü Beynəlxalq Albinizm haqqında Maarifləndirmə Günü kimi qeyd edilir. Bu tarix 2014-cü il dekabrın 18-də BMT-nin Baş Assambleyası tərəfindən təsis olunub. Ölkəmizdə də albinizm hər 20 min insandan birində aşkarlanır.

**Yeganə BAYRAMOVA**

# Görkəmli kaman ifaçısı!

## Tələt Bakıxanovun doğum günüdür



Bir çox sənətkarlar dünyalarını dəyişsələr də heç vaxt unudulmurlar. Azərbaycanın Əməkdar artisti, tanınmış kaman ustası, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının mahnı və rəqs ansamblının solisti olmuş Tələt Bakıxanov da belə sənətkarlardan biridir.

Bu gün böyük sənətkarın anadan olmasından 98 il ötür. Tələt Bakıxanov 13 iyun 1927-ci ildə Bakı şəhərində anadan olub. Musiqiçi kimi yetişməsində əmisi Əhməd Bakıxanovun böyük rolu olub.

1945-1947-ci illərdə teatr texnikumunu bitirib, 1947-1949-cu illərdə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Məktəbində kamança ixtisası üzrə Hafiz Mirzəliyevdən və Firuz Əlizadədən dərs alıb. 1947-ci ildən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının mahnı və rəqs ansamblının solisti olub.

Bir sıra xarici ölkələrdə, o cümlədən Fransa, İndoneziya, Malta, İran, Türkiyə, Suriya və s. qastrol səfərlərində olub, muğam üçlüyünün tərkibində görkəmli xanəndələri müşayiət edib. Azərbaycan muğamlarının, xüsusilə, "Segah" instrumental muğamının gözəl ifaçılarından biri kimi tanınıb.

Tələt Bakıxanov respublika və beynəlxalq əhəmiyyətli müsabiqələrin, simpoziumların iştirakçısı və qalibi olub. 1970-1980-ci illərdə Səmərqənddə keçirilən "Yaxın və Orta Şərq xalqları peşəkar musiqisinin ənənələri və müasirlik" mövzusunda birinci və ikinci beynəlxalq simpoziumlarının iştirakçısı olub, B.Mansurov, C.Əkbərov, A.Qasımov kimi sənətkarlarla birgə Azərbaycan muğam ifaçılığı sənətini təmsil edib.



Tələt Bakıxanov 1988-ci ildən Bülbül adına Orta İxtisas Musiqi Məktəbində çalışıb.

Görkəmli sənətkar 30 may 2000-ci ildə Bakı şəhərində vəfat edib.



## "Sabah" amerikalı basketbolçu ilə vidalaşıb

"Sabah" basketbol komandası Trey Sampsonla yollarını ayırıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, ABŞ-dan olan 25 yaşlı oyunçu ilə başa çatan müqavilə yenilənməyib. O, bu ilin yanvar ayından paytaxt təmsilçisində çıxış edirdi.




## Ümumi tamaşaçı sayı açıqlanıb

Misli Premyer Liqasının 2024/2025-ci illər mövsümünün oyunlarını ümumilikdə 275 min 933 tamaşaçı izləyib. AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, baş tutan 180 matçda orta tamaşaçı sayı 1533-ə bərabər olub. Ev oyunlarındakı izləyici sayında "Turan Tovuz" hamını qabaqlayıb. Qərb təmsilçisi mövsüm ərzində 78500, orta hesabla hər oyunda 4361 seyrçi toplayıb.



"Turan Tovuz" ikinci yerdən təxminən 2 dəfə önədir. Tamaşaçı sayında "Neftçi" (39767) ikinci, "Sumqayıt" (33450) üçüncü pillədə qərarlaşıb.

Mövsümün ən çox tamaşaçı toplayan qarşılaşmaları Azərbaycan derbiləridir. XXIII turda "Neftçi" - "Qarabağ" oyununda 9355, XXXI turda "Qarabağ" - "Neftçi" görüşündə 7200, XV turun "Neftçi" - "Qarabağ" matçında 7069 seyrçi qeydə alınıb. "Sumqayıt" - "Qarabağ" (IX tur, 7000 tamaşaçı) və "Turan Tovuz" - "Qarabağ" (XXVIII tur, 6500 tamaşaçı) oyunları da ilk "beşlik"də yer alıb.

## Qadın futbolçulardan ibarət Azərbaycan millisi FIFA reytinqində irəliləyib

FIFA qadın futbolçulardan ibarət milli komandaların reytinq cədvəlini yeniləyib. AZƏRTAC ali futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, Azərbaycan yığmasının da dünya reytinqindəki yeni mövqeyi bəlli olub.



Ötən siyahı ilə müqayisədə bir pillə irəliləyən yığmamız (1303.32 xal) 74-cü sıraya yüksəlib.

Qeyd edək ki, reytinq cədvəlinə ABŞ seçməsi (2057,19) başçılıq edir.

## 246 medal dəsti uğrunda mübarizə gedəcək

Azərbaycanda keçiriləcək III MDB Oyunlarında 23 idman növü üzrə 246 medal dəsti uğrunda mübarizə aparılacaq. Bakı Şəhər Halqasından AZƏRTAC-a verilən məlumata görə, ən çox medal üzgüçülük üzrə (40 dəst) olacaq. Komanda idman növlərində - futbol, voleybol, 3x3 basketbol və çövkən üzrə də qaliblər və ən dəyərli oyunçular (MVP) müəyyənləşəcək.




Qeyd edək ki, III MDB Oyunları bu il 28 sentyabr - 8 oktyabr tarixlərində Azərbaycanın yeddi şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Yarışlar 12 idman məkanında keçiriləcək.

Oyunlarda MDB-yə üzv və dəvət olunmuş ölkələrin idmançı və rəsmi nümayəndələrin iştirakı gözlənilir.

## Polşa millisinin baş məşqçisi istefa verib

Futbol üzrə Polşa millisinin baş məşqçisi Mixal Probyej vəzifəsini tərk edib. AZƏRTAC xəbər verir ki, bu barədə Polşa Futbol Assosiasiyasının rəsmi saytı məlumat yayıb. Mütəxəssislə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.



Qeyd edək ki, Mixal Probyej bir neçə gün öncə yığmanın kapitanı Robert Levandovski ilə bağlı qalmaqalla gündəmə gəlmişdi. O, kapitanlıq sarğısını ulduz futbolçudan aldığı üçün sərt tənqid olunmuşdu. Levandovski isə Probyej istefa verənədək milli komandanın formasını geyinməyəcəyini bildirmişdi.

Mixal Probyej 2023-cü ilin sentyabrında Polşa millisinin baş məşqçisi təyin olunmuşdu.

## "Araz-Naxçıvan" israilli futbolçunu transfer edib

"Araz-Naxçıvan" mövsümlərarası fasilədə ilk transferini reallaşdırıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, Bar Koen 2025-2026-cı illər mövsümündə "qırmızı-ağlar"ın formasını geyinəcək. Pleymeyker funksiyasını yerinə yetirən 24 yaşlı futbolçu ilə 1 illik müqavilə imzalanıb.

O, buna qədər ancaq İsrail klublarında çıxış edib. Müxtəlif illərdə "Makkabi" (Təl-Əviv), "Beytar" (Təl-Əviv) və "Hapoel" (Hayfa) komandalarının formasını geyinən hücumameyilli yarımmüdafiəçi son iki mövsümü "Makkabi Netaniya"da keçirib. Karyerasında ilk dəfə legioner həyatı yaşayacaq futbolçu İsrailin U-17, U-18, U-19 və U-21 millilərinin də üzvü olub.



Qeyd edək ki, buna qədər baş məşqçi Elmar Baxşıyevlə yanaşı, İssof Paro, Ömər Buludov, Kristian Avram, Tərlan Əhmədli, Ürfan Abbasov, Slavik Alxasov, Qara Qarayev, Bəxtiyar Həsənalızadə, Ülvü İsgəndərov, Vanderson Melo, Ramon Maçado və Nuno Rodriqeslə başa çatan müqaviləni yeniləyən "Araz-Naxçıvan" Vadim Abdullayevlə yollarını ayırıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5003**
**Sifariş: 1181**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova